# Dövlətin dil siyasəti və milli kimliyimizin qorunması

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirində iştirak edən cənab Prezident İlham Əliyevin çıxışı Azərbaycan cəmiyyətində böyük əks-səda yaratdı. Ölkə başçısının çıxışında qoyduğu məsələlər, problemlər cəmiyyətin və elm mühitin yeni inkişaf meyarlarını müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. Xüsusilə, dövlətin dil siyasəti və Azərbaycan dilinin saflığını qorunması haqqında səsləndirilən fikirlər 50 milyonluq Azərbaycan dili daşıyıcısı üçün bir manifest idi.**




Azərbaycan dilinə dövlət qayğısı bu gün sadəcə mədəni məsələ deyil, milli ideologiyanın strateji dayağı, müstəqilliyin mənəvi təminatıdır. İlham Əliyevin 3 noyabr 2025-ci il çıxışında qeyd etdiyi fikirlər bir daha göstərdi ki, dilin saflığı, onun qorunması və inkişafı təkcə filoloqların işi deyil, Azərbaycan elminin, ziyalı təbəqəsinin və ictimaiyyətin bütün təbəqələrinin ortaq missiyasıdır.

Əsrlər boyu xalqımızı bir millət kimi yaşadan dəyərlərin mərkəzində ana dilimiz dayanır. Azərbaycan dili tarix boyu yad təsirlər, imperiyalar, müstəmləkə siyasətləri qarşısında öz saflığını qoruyubsa, bu, həm xalqın mənəvi gücü, həm də onun ziyalı təbəqəsinin fədakar xidmətidir. Bu gün isə həmin missiya daha mürəkkəb müstəviyə keçir: qloballaşma, informasiya çağının təsiri, sosial şəbəkə dili və texnoloji mədəniyyət fonunda Azərbaycan dilinin saflığını qorumaq artıq dövlət və cəmiyyətin birgə işi kimi formalaşır.

Müstəqil Azərbaycan dövləti tarix boyu dilə göstərilən qayğını ardıcıl şəkildə həyata keçirir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sahəsində Azərbaycan dilinin dövlət dili kimi hüququ statusu Konstitusiya əsasında təsbit edildi. Bu ənənə Prezident İlham Əliyev tərəfindən müasir şəraitdə daha da dərinləşdirilir. Son illər ərzində dilin normativ bazasının təkmilləşdirilməsi, lüğət və orfoqrafiya qaydalarının yenilənməsi, kütləvi informasiya vasitələrində dilin düzgün işlədilməsinə nəzarətin gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Prezident İlham Əliyevin ana dilinin dövlət dili kimi inkişafı ilə bağlı apardığı siyasət, həyata keçirilən məqsədyönlü tədbirlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və dünya dilləri arasında yüksək mövqe qazanmasına imkan yaradır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğu haqqında ideya istiqaməti bu gün də dövlət siyasətinin tərkib hissəsi kimi müasir siyasi baxışlara uyğun səviyyədə aparılır.

Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramında vurğulanan Azərbaycan dilinin dövrün tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması məsələləri dövrün tələbidir. Bu tələbdən irəli gələn məsələlərin reallaşması isə Azərbaycan dilinin daşıyıcıları olan bizlərin ən böyük öhdəliyidir. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik". Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubiley tədbirində alimlər qarşısında çıxışı zamanı bu fikirləri səsləndirən ölkə başçısı eyni zamanda dövlət xadimlərinə müraciət edərək "Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur" fikri də dövlətin dil siyasətinin qorunmasında hər kəsin vətəndaş mövqeyini nümayiş etdirməsinə bir çağırış idi. Qeyd edildiyi kimi, "10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur".Bu fikirdə həm dövlətin ictimai xadimlərinin, hökumət üzvlərinin üzərinə böyük məsuliyyət qoyulur, həm də vətəndaşların mənəvi borcu ifadə olunur. Dövlət qayğısı yalnız hüquqi normativlərdə deyil, ictimai şüurun mərkəzində olmalıdır.

Bizim milli varlığımızı, mədəniyyətimizi, musiqimizi, ədəbiyyatımızı bir-birinə bağlayan ən güclü tellərdən biri məhz Azərbaycan dilidir. Ona görə də dövlət başçısı İlham Əliyev 3 noyabr 2025-ci il tarixli çıxışında Azərbaycan dilinin qorunmasına xüsusi diqqət ayırır: "Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır". Bu çağırış dövlətin təkcə dil mədəniyyətini deyil, dil siyasətini də müəyyənləşdirir. Elmi müəssisələrin, universitetlərin və KİV-lərin dil saflığına dair məsuliyyət mexanizmlərini daha da gücləndirir. Hər kəs öz ana dilinin qorunmasına öz nitqindən, öz yazısından başlamalıdır. Fikri mürəkkəbləşdirmək və ya elmi biliklərini nümayiş etdirmək üçün istifadə edilən anlaşılmaz ifadələr, alınma sözlər dilin təbii inkişafına mane olur və bu da dövlət dilinin saflığının və nitq ahəngdarlığının pozulmasına imkan yaradır.

Dilin saflığının qorunması məsələsi Prezidentin çıxışında xüsusi narahatlıq doğuran məsələ kimi qeyd edilir. Çünki xarici sözlərin, yad ifadələrin sürətlə dilə daxil olması yalnız leksik problemi deyil, milli kimliyin eroziyası riskidir."Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik". Bu sözlər yalnız ölkəmizdə deyil, Azərbaycandan kənarda da dilimizin inkişaf etdirilməsinə yeni müstəvidə yanaşılmasına istiqamət verir. Milli kimliyin genetik kodu kimi ədəbi-mədəni, mənəvi dəyərlərimizin qorunmasına bir çağırışdır. Dövlətin dil siyasəti bu kodun qorunması, inkişaf etdirilməsi, onun gələcək nəsillərə əmanət kimi çatdırılması müstəqil Azərbaycanın ideoloji və mənəvi dayağıdır.

Ölkə başçısının AMEA-nın 80 illik yubileyində ana dili haqqında söylədiyi nitqdə əsas tezislərdən biri də dilin gələcəyi olan gənc nəsil arasında dilin işləkliyi məsələsidir. Səslənən bu fikirdə gənc nəslin, yazıçıların, şairlərin, jurnalistlərin, dilçilərin üzərinə mühüm vəzifə qoyulur: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər". Bu, müasir dövrdə milli şüurun qorunması üçün ən vacib tezislərdən biridir.

Qloballaşma dövründə milli dilin unudulması, onun yerinə yad elementlərin keçməsi təhlükəsi realdır. Ona görə məktəblərdə, ali təhsil müəssisələrində, media və sosial şəbəkələrdə Azərbaycan dilinin nüfuzunun artırılması dövlət siyasətinin əsas prioritetlərindəndir. "Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə, öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur."

Azərbaycan dilinə dövlət qayğısı dövlətin gələcəyə yönəlmiş dil siyasətinin tərkib hissəsidir. Azərbaycan dilinə dövlət qayğısı təkcə tədris və normativ tədbirlərlə məhdudlaşmır. Bu qayğı dilə olan sevginin, dəyərin, məsuliyyətin dövlət səviyyəsində qorunması deməkdir. Bu sahədə dövlət proqramlarının hazırlanması, Dil və Terminologiya komissiyalarının fəaliyyətinin genişləndirilməsi, həmçinin dil texnologiyalarının (rəqəmsal lüğətlər, nitq tanıma sistemləri və s.) inkişafı müasir mərhələdə xüsusi əhəmiyyət daşıyır.

İlham Əliyevin qeyd etdiyi kimi,"Biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər". Ölkə başçısının bu fikri dilin yalnız kommunikativ vasitə deyil, dövlətçiliyin ideoloji sütunu olduğunu bir daha təsdiqləyir.Azərbaycan dövləti bu missiyanı öz üzərinə götürərək onun inkişafını, qorunmasına təminat verir. Bu baxımdan cənab Prezident İlham Əliyev Azərbaycan alimini də bu məsələdə diqqətli olmağa, dövlətin dil siyasətinə elmi-metodoloji aspektdən dəstək verməyə səslədi: "Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

İndi isə məsuliyyət alimlərin, ziyalıların və hər bir vətəndaşın üzərindədir. Ana dilimizi qorumaq, onu saf və zəngin şəkildə gələcəyə ötürmək, sadəcə vətəndaş borcu deyil, milli varlığımızın davamlılıq zəmanətidir.

**Şəbnəm HƏSƏNLİ-QƏRİBOVA**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru**